# AZƏRBAYCANIN ƏNƏNƏVİ GEYİM TİPLƏRİNİN TƏŞƏKKÜLÜNƏ DAİR YERLİ VƏ ƏXZETMƏ GEYİM ELEMENTLƏRİ

**S.S.DÜNYAMALIYEVA**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*

Dünya geyim mədəniyyəti tarixində qafqazlıların geyimi mənşəyinə görə xüsusi maraq kəsb edir. Lap qədim dövrlərdən başlayaraq Asiya və Avropanın qədim xalqlarının bir qisminin – şumer, babil, assuriya, yəhudi və başqalarının yolu Qafqazdan keçmişdir. Burada bir çox tayfalar oturaq həyat tərzinə keçmiş və öz milli geyimləri ilə onsuz da zəngin və müxtəlif olan Qafqaz geyimlərinə bir sıra yeni elementlər əlavə etmişlər (1, s.35). Bununla yanaşı, gəlmə etnoslar bu geyimlərin funksionallığı və gözəlliyini öz geyimlərində mümkün qədər əks etdirməyə çalışmışlar. Həmin mənbədə farsların bayır geyimi kimi təqdim olunan çaxçurun ilkin yaranmasının təsvirlərini biz e.ə. VIII minilliklərdən başlayaraq Qobustan qayaüstü təsvirlərində müşahidə edir və faktiki olaraq e.ə. I minilliyə aid gil qadın fiqurunun əynində görürük. Bu çaxçur, biçiminə görə daha praktik olub və (1, s. 36) adı çəkilməsə də, onun dördbucaq torba kimi tikildiyi qeyd edilir. Deməli, çaxçur Azərbaycan xalqı üçün farslardan alınma deyil, Azərbaycana aid olub, farslar tərəfindən də qəbul edilmiş geyim növüdür.

Dünya geyim mədəniyyəti tarixində ən qədim dövrü e.ə. 3000-1100-cü illərdən qədim Misir geyimləri ilə başlayırlar. Təbiidir ki, bu dövrdə geyinilən zərif toxunma parçaların mənşəyi çox qədimlərə gedib çıxır.

Əvvəlki araşdırmalarımızda qeyd etmişdik ki, sarınma geyim növünün ən qədim nümunəsi Qobustan qaya təsvirlərində əks olunmuşdur (2, s. 46-50). Bu nümunələr sarınma geyim növünün Azərbaycanda e.ə. VIII minilliklərdən başlayaraq istifadə olunduğunu göstərir. Bəllidir ki, mumiyalanmış adamlar da bu üsulla sarınırdı. Lakin hələlik tapılmış ən qədim mumiyanın yaşı eramızdan 5300 il əvvələ aid edildiyindən bu tip geyimin də mənşəyinin, hələlik Azərbaycan olduğunu hesab etmək olur. Lakin, təəssüf ki, bu həqiqəti bir çox azərbaycanlı etnoqraf və sənətşünaslar qəbul edə bilmir və bu məsələ ilə əlaqədar olan müzakirələrdə bu mövzuya, ümumiyyətlə, toxunmamağı məsləhət bilirlər. Dünya geyim mütəxəssisləri isə sarınma geyim növünü geyim mədəniyyətinin başlanğıcına aid edirlər. Bu növə qədim yunanların geyimlərini, buna bənzər olan yapon kimonosunu, hind dxoti və sarisini də aid edirlər (3, s. 99).

Mütəxəssislər həmçinin dəfn zamanı mərhuma bürünən kəfəni də sarınma geyim növünə aid edirlər və bunun Orta Asiyaya İranın şimalında yaşayan tayfalar tərəfindən gətirildiyini göstərirlər (3, s. 99, 127).

Dünya xalqlarının geyim tarixi ilə məşğul olan mütəxəssislər şalvarın ilk yaranışda hər ayağa tək-tək sarınan bel geyimi olduğunu təsdiq edir və qədim romalıların bu geyimi Şərqdən qəbul etdiklərini sübut edən dəlillər gətirirlər (4, s. 15).

E.ə. I minillikdə Azərbaycan ərazisində yaşamış yerli tayfalar, yüngül düzbiçimli uzun köynəkdə və bir çiyninə dəri parçası salınmış halda təsvir edilirlər. Bu geyim e.ə. I minillikdə də mannalıların, qərbi midiyalıların və Herodota görə, kaspilərin xarakterik geyimi olmuşdur. Bu köynək müxtəlif təsvirlərdə, işi və ictimai mənşəyi müxtəlif olan adamların əynində müxtəlif elementlər əlavə olunmuş, uzunluğuna, materialına, naxış və bəzəklərinə, həmçinin onunla yanaşı, istifadə olunan əlavə elementlərə görə fərqli olaraq təsvir edilir.

E. ə. XII-VII yüzillikləri əhatə edən Assuriya çarlığı dövründə saray əhli və əhali arasında ətəyi saçaqla bəzədilmiş düzbiçimli geyim geyinilir, onun üstündən kənarları saçaqlı örpək istifadə edilirdi. Bu örpəyin bir ucu belə sarınır, digər ucu ön tərəfdən dolanaraq sol çiyinə atılırdı.

E.ə. IX-VIII yüzilliyə aid edilən Ziviyə qazıntılarından tapılmış, fil sümüyündən düzəldilmiş fiqurun geyimi bu geyimə bənzəyir. Fiqurun əynindəki düzbiçimli köynəyin üstündən geyinilən, kənarları saçaqlı element Assuriya tipli geyim elementidir. Bu element alınma olduğundan uzunmüddətli olmur və geyim mədəniyyətinin sonrakı mərhələlərində biz bu tip geyim elementinə rast gəlmirik.

E.ə. 673-cü ildə Midiya dövləti yaranır. Qottenrot midiyalıların geyimlərinin farsların geyimlərindən tamamilə fərqli olduğunu qeyd edir və onun biçiminin tamamilə başqa xarakterə malik olduğunu göstərirdi. *Kandis* adlanan bu geyim xeyli enli, uzun idi və çoxlu qırçınlarla yığılırdı. Bu paltarın ətəkləri o qədər uzun idi ki, onu ya yığıb kəmərə bərkidir, ya da bunun üçün belə bağlanmış xüsusi qaytana bənd edirdilər.

Geniş biçimli, çoxlu qırçınlı olan bu cür geyimlərə sonradan e.ə. VI-V yüzilliklərdə Yunanıstan geyimlərində daha təkmil formalarda rast gəlirik (1, s. 62, 63).

Midiya dövlətinin yaranması ilə yerli, xarakterik geyimdə baş verən ciddi dəyişikliklər edilmiş bu paltar ancaq saray əhalisi arasında geyinilirdi. Strabon «Coğrafiya» əsərində göstərirdi ki, bu geyimi Yasonla birlikdə Midiyada hakimiyyətdə olduğu müddətdə Medeya dəbə salmışdı. O, hətta çölə çıxanda üzünü də örtürmüş. Geyimdə olan bu dəyişikliklərə baxmayaraq döyüş geyimi əvvəlki formasını saxlamışdı, daha yüngül, yığcam və qıvraq idi.

Strabon «Coğrafiya» əsərində göstərirdi ki, Midiya dövlətinin əsasını təşkil edən bir çox qaydalar və adət-ənənələr farslara deyil, midiyalılara məxsus idi. Həmçinin geyimlərin də farslara xas olmadığı və onların iqlim şəraitinə uyğun gəlmədiyi qeyd olunur. *Tiara, kitara, keçə papaq, şalvar, qollu xiton* (Qottenrot *kandis* adlandırır) cənubda yox, Midiya kimi şimal yerlərdə geyinilə bilərdi (5, s. 29).

E.ə. VII yüzilliyə aid edilən Nineviya relyeflərində «Assuriyalıların midiyalıları güclə köçürməsi» təsvirindəki qadınların geyimləri və e.ə. VIII yüzilliyə aid edilən Ziviyə qazıntılarından tapılmış bürünc kasa üzərində manna və gilzanlıların geyim elementi olan kənarları saçaqlı ellipsvarı örtük Assuriya dövrü geyimləri ilə bənzərdir (1, s. 48),

görünür, alınma geyim elementi olduğuna görə sonrakı dövrlərdə bu geyim elementinə rast gəlmirik.

E.ə. 550-330-cu illəri əhatə edən Əhəmənilər hakimiyyəti dövründə saray geyimi Midiya dövrü geyimlərinə bənzəyirdi və onun əsasında yaranmışdı. Buna baxmayaraq e.ə. V-III yüzilliyə aid edilən Mingəçevir qazıntılarından tapılmış üzüklər üzərindəki təsvirlərdə ənənəvi xalq geyimlərindən geniş şəkildə istifadə edildiyi görünür.

E.ə. 336-323-cü illərdə hakimiyyətdə olmuş Makedoniyalı İsgəndər e.ə. 334-326-cı illərdə şərqə yürüş etmişdir. Plutarx Aleksandr yazırdı ki, o, Qirkan sahilindən (Xəzər sahilindən) Parfiyaya gedərkən yerli xalqın Barbar paltarını geyinir. Bununla o, ya qəsdən yerli xalqın adətlərinə uymaq istəyir və başa düşür ki, bununla yerli xalqı «satın alır», ya da öz şəxsiyyətinə təzim təşkil edir. Bu üsulla o makedoniyalıları tədricən yeni adətlərə öyrətmək istəyirdi. Buna baxmayaraq o, çox Barbar və qeyri-adi hesab olunan Midiya paltarını bütünlüklə qəbul etmədi, nə *şalvar*, nə *kandiya*, nə də *tiara* geyindi. Elə geyim seçdi ki, onda bir qədər midiya, bir qədər də fars geyimi elementləri əks olundu, bu birincidən daha sadə, ikincidən isə daha təntənəli idi. Əvvəlcə o bu paltarı ancaq barbarlarla görüşəndə və ya evdə dostları arasında geyinirdisə də, sonralar onu bayıra çıxanda və rəsmi qəbul zamanı da geyinirdi (5, s. 52) .

Romalıların əsas geyimi *toqa* idi. E.ə 146-cı ildən başlayaraq yunan xitonu rolunu Romada tunika oynamağa başlayır (1, s. 11). Xitondan fərqli olaraq tunika başdan geyinilirdi. Xiton ilk olaraq şərqi yunan tayfaları olan ioniyalılarda meydana gəlmişdir. Onlar bu geyimi semit Şərqindən qəbul etdiklərini bildirirdilər (1, s. 10). Herodota görə ioniyalıların əsas tarixi geyimini sıradan çıxaran bu xiton Pisistratın hakimiyyəti dövründə (560-527-ci illərdə) Afinada da tətbiq edilməyə başlamışdı və ilk bağlı geyim idi ki, sancaqsız istifadə olunurdu. Halbuki qədim Azərbaycan ərazisində, Qobustan qayaüstü rəsmlərində e.ə. II-I minilliyə aid olan xeyli təsvirlərin əynində düzbiçimli, uzunluğu bəzən dizə qədər, bəzən də dabana qədər olan bu cür üst geyimi təsvir olunub və son dövrlərə qədər ciddi dəyişiklik edilmədən Azərbaycan xalqının əsas geyimi kimi məişətində mühüm yer tutub. Bu geyimdən başqa ioniyalıların geyimində yeni və daha zəngin bir üst geyimi meydana gəlmişdi. Bu bugünkü jaketə bənzər, qollu və biçilib tikilən üst geyimi idi. Bu geyim əsasən, çox bəzəkli, zərif və incə olmaqla, çox bahalı və təntənəli tikilir, kənarları bəzəklərlə işlənirdi. Bu paltarın tikilməsində təkcə təmiz ağ parçadan deyil, həm də bahalı şərq parçalarından istifadə edirdilər (1, s. 10).

Yunan alimləri e.ə. VIII yüzillikdə midiyalıların geyim dəstinə şalvar və köynəkdən başqa yun parçadan tikilmiş müxtəlif rəngli, güllü, naxış tikməli xalatları (cübbələri–S.D.) da aid edirdilər (6, s. 364-365). E.ə. IX-VII yüzilliklərə aid Mingəçevir qazıntılarından əldə olunan məlumatlara əsasən bu dövr qadınlarının bu tip üst geyimi–cübbə geyindiyi bəlli idi (2, s. 53-55). Ola bilsin ki, Şərq dedikdə, qədim Azərbaycan nəzərdə tutulur və *cübbə* də estetik görkəmcə cəlbedici, funksional cəhətcə praktik olan digər geyim növləri kimi dünya geyim mədəniyyəti tarixinə məhz Azərbaycandan daxil olub.

Erkən orta yüzilliklər Azərbaycanında geyim mədəniyyəti qədim dövrün zəngin geyim mədəniyyəti əsasında inkişaf edirdi. Azərbaycan ardı-arası kəsilmədən işğallara, hücumlara məruz qalırdı.

Alban dövləti qonşularına nisbətən əmin-amanlıq şəraitində yaşasa da bir qədər sonra Roma işğalçılarına qarşı, alanlara qarşı müqavimət göstərməyə məcbur olur, onları ölkəyə buraxmaq istəmirdilər.

III-IV yüzilliklər hun, xəzər, basil və başqa türk tayfaları Dərbənd keçidi ilə Azərbaycana yürüş etdilər.

639-cu ildə ərəb qoşunları Urmiya gölü tərəfdən Azərbaycana daxil oldu. Ərəb qoşunları güclü müqavimətlə qarşılaşsalar da, nəhayət Azərbaycan əhalisi tabe oldu.

Qottenrot yazırdı ki, ərəblər İranı işğal etdikdən sonra əhali bütünlüklə qədim ərəb geyimlərini – köynək, kaftan, çalma və plaşı (əbanı–S.D.) qəbul etdi. Lakin elə həmin mənbədəcə (7, s. 140) müəllif qeyd edir ki, «...Арабы заимствовали из костюмов покоренных ими народов ту или другую часть и ассимилировали ее со своей национальной одеждой... первобытная одежда из верблюжей шерсти исчезла и заменилась шелковыми и бумажными тканями, украшенными фантастическими узорами и изображениями животных».

Qottenrot XVI yüzilliyin ərəb geyimlərini təsvir edərkən onların türksayağı dəyişikliyə uğramış geyim geyindiklərini (7, s. 147) və 9 fut (274, 32 sm) uzunluğunda parça tikəsindən düzəldilmiş çalmalarını xüsusi qeyd edir. Qadınlar köynək, şalvar, enli qolları olan uzun xalat, qolsuz tunika, üstündən qısa, enli örtük bərkidilmiş hündür papaq qoyduqlarını yazırdı. Ərəb qadınları uzun, qolsuz don, bir tərəfdən açıq olmaqla sinə altında kəmərlə sıxılan qolsuz tunika geyinirmişlər. Onların geyindiyi paltarlar çox enli olub, uzunluğu dizə və ya topuğa qədər çatan libas, *kamis* adlanan ağ köynək, güllü pambıq və ya ipəkdən tikilmiş, köynək uzunluqda və ya ondan bir qədər uzun *kaftan (kuftan),* güllü şaldan tikilmiş *xezam* adlanan qurşaq, uzunluğu biləyə çatan və enli qolları olan çox uzun xalatdan (*qibbə*) ibarət idi. Təntənəli mərasimlərdə qibbənin üstündən və ya onun əvəzinə ya *benş* adlanan uzunqollu kaftanın qolu kimi uzununa kəsilmiş geyim və ya buna oxşar, lakin qolu kəsilməmiş *faraziyyə* geyinirdilər.

Bizim fikrimizcə, köynək-gömlək sözünün əmələ gəlməsi ilk geyim kimi göndən istifadə olunması ilə əlaqədardır. Gönün geyim kimi istifadə olunması və insanı, əsasən fiziki təsirdən qoruması «Onun gönü (əslində burada söhbət insanın geyimindən gedir) qalındır, ona heç nə kar etməz» deyimində aşkar ifadə olunur və hazırda məcazi mənada işlənilir. Kaftanın isə kafadan-başdan geyinildiyinə görə belə adlandırıldığını qeyd etmiş və Azərbaycan ərazisində çox qədim dövrlərdən başlayaraq geyinilən geyim olduğunu göstərmişdik. Ona görə də bu geyimlərin, tam olaraq «ərəblərin geyimi» kimi təqdim olunmasının əleyhinəyik.

Qottenrotun plaş adlandırdığı əbanın ərəblərdən qəbul edildiyinə mübahisə etmirik. Lakin qadın üst çiyin geyimi kimi cübbə geyinildiyini əvvəlki araşdırmalarımızda qeyd etmişdik (2, s. 53-55). Mingəçevirdə aparılan arxeoloji qazıntılardan, e.ə. IX-VII yüzilliklərə aid edilən 63 saylı qəbirdən tapılan düymələrə görə onun əba deyil, cübbə olduğu bəlli olur. Çünki əba düyməsiz tikilirdi. Yuxarıda qeyd etmişdik ki (bax: səh. 90), cübbənin ümumi siluet forması sinədə dar, ətəkdə isə gen olan trapes formasında idi.

909-1030-cu illərdə zaman-zaman rusların basqınına məruz qalan Azərbaycan xalqı yadelliləri dəfələrlə öz ölkəsindən qovdu. Azərbaycanın tə-

bii yeraltı və yerüstü sərvətləri, əlverişli coğrafi mövqeyi, yadelliləri cəlb edən əsas amillər idilər.

XIII yüzillikdə Azərbaycan xalqı yenidən təcavüzə məruz qaldı. Moğollar İranı keçib Azərbaycana soxuldular. Dağıntılar, xalqa edilən zülmlər, sözsüz ki, sənətkarlığın inkişaf etməsinə mane olurdu. Lakin qarətçilər nəinki mal-mülkü, varidatı qarət edir, sənətkarlardan da istifadə edirdilər. Lakin onların haqlarını belə ödəmirdilər.

XIII yüzilliyin görkəmli ərəb tarixçisi İbn əl-Əsir "Əl-Kamil fi-t-tarix" əsərində o dövrdə Təbrizdə gözəl ipək parçaların olması ilə yanaşı, mahir sənətkarların da olmasını qeyd edir. Bu məqalədə göstərilir ki, "Təbrizlilər ona (tatarlara-S.D.) çoxlu pul, ipək parça və başqa şeylərdən hədiyyələr göndərirdilər. [Padşah] sonra bunlardan xətai və başqa paltar tikmək üçün dərzilər istədi ki, gəlib onların böyük padşahları üçün paltar tiksinlər. Onlar dərziləri gətirtdilər. Padşah istədiyi işləri onlara tapşırdı, ancaq dərzilərin pulunu təbrizlilər ödədilər... ondan sonra Təbriz əhalisinə, hər ildə ödəmək şərtilə, çoxlu pul və paltar vergisi qoydu" (5, s. 159).

Geyimli insan təsvirlərinə XI-XIII yüzilliklərdə Azərbaycanda düzəldilmiş kaşı qablar üzərindəki rəsmlərdə rast gəlirik. Həmin dövrə aid Beyləqanda düzəldilmiş qablarla Eldəniz sənətkarlarının hazırladıqları qablar üzərindəki qadınlar sifət cizgilərinə, göz quruluşlarına görə xeyli fərqlənir və Eldəniz sənətkarlarının hazırladıqları qablar üzərindəki təsvirlərdə çin-uyğur rəssamlığının izləri aydın görünür. Geyimdə istifadə olunmuş uzununa zolaqlı parçaya da ancaq bu sənətkarların əsərlərində rast gəlirik ki, bu da yerli sənətkarların hazırladıqları parça tipinə o qədər də uyğun gəlmir və çin-uyğur geyim dəbinin ölkəyə gətirildiyini göstərir.

XI yüzillikdə ərəbləri Oğuz tayfalarından olan Səlcuq türkləri əvəz etdi. Bir müddətdən sonra İraq sultanlığının əsasında Azərbaycan Atabəylər dövləti yarandı.

Bütün Orta, Mərkəzi və Şərqi Asiyada çox qədimdən üstünlük verilən geyim forması müxtəlif variantlı, düyməsiz, qabağı açıq xalatlardır ki, onlar da beldə qurşaqla bağlanırdı. Bu geyimə qadın və kişi şalvarları da daxil idi. Monqol və Mancur istilası dövründə Şərqi Asiyanın bir çox xalqlarında özünəməxsus monqol-mancur xalatları bu xalatları sıradan çıxartdı. "Deli" adlanan dik yaxalıqlı bu xalatlar boyundan yarımdairə formasında biçilir, sağ qoltuq altında kiçik düymələrlə düymələnirdi. Bu xalatlar Koreya, yapon xalqlarından başqa digər xalqların – Çin, Vyetnam və başqa xalqların müasir xalatabənzər geyiminin əsasıdır.

İslam dininin yayılması Şərqdə qadınların üzünü örtməsinə səbəb oldu. Pərəncə, rübənd, örpək, çadra və s. geyim növləri yayıldı.

Daha bir sadə geyim forması olan ponçoya, demək olar ki, bütün dünya xalqlarında rast gəlinir. Bu düzbucaq və ya rombşəkilli parça tikəsindən, ortasında baş yeri açmaqla düzəldilir, bütün kənarları boyunca saçaq və ya bafta tikilir (Bu geyim tipinə biz Ziviyə qazıntılarından tapılmış kişi və qadın təsvirlərinin əynində rast gəlmişdik (6, s. 144). Ponço Cənub-Şərqi Asiyada və daha çox Cənubi Amerikanın hinduları arasında yayılmışdır.

İnkişaf etmiş orta yüzilliklərdə Ağqoyunlu sultanlığı ilə bir çox Avropa dövlətləri Venesiya Respublikası, Vatikan, Neapol krallığı, Macarıstan, Kıbrıs krallığı ilə hərbi-siyasi birlik yaranmışdı. Uzun Həsən Trabzon imperatorunun qızı Teodora (Dəspinə) ilə evlənərək Trabzondan bir liman və tranzit ticarət dayağı kimi istifadə edirdi. Artıq XV

yüzilliyin ikinci yarısında Şimali Azərbaycanın həm Rusiya, həm də Avropa ölkələri ilə gediş-gəlişi və ticarət əlaqələri xeyli genişlənmişdi. Belə əlaqələr bu xalqlar arasında geyim və geyim materialları istehsalına təsir etməyə bilməzdi. Bu dövrdə Azərbaycanda geyinilən cübbə öz gözəlliyi, keyfiyyəti, praktikliyi və müasirliyi ilə (əslində ən qədim geyimimiz olsa da) avropalıları heyran edirdi. Mənbələr bu zəngin geyimin xarici ölkələrdə, əsasən də Azərbaycanla geniş ticarət əlaqələrinə malik olan Avropa ölkələrində çox yüksək qiymətləndirildiyini qeyd etmişdir. Avropada reformasiya dövrünün yeni dəbli kişi konturu əsasən qısa plaşın hesabına yaranırdı ki, bunu almanlar şaube, çexlər şuba adlandırırdı. İtalyan tappertinə bənzəyən bu plaşı italyanlar cübbə adlandırırdılar və onun İtaliyaya XIV yüzillikdə gəldiyini qeyd edirdilər. Cübbəni çox vaxt kətan parçadan tikir və belinə kəmər bağlayırdılar. Çex plaşları ilə müqayisədə bu çox səliqəli idi (8, s. 153).

İbtidai dövrdən bu dövrə qədər araşdırdığımız yazılı və təsviri materiallara görə müəyyən etdiyimiz geyim tiplərinin əsasən köynək, qaftan, şalvar, çaxçur, cübbə, nimtənə, çuxa olduqlarını qeyd etmişdik. Təsvirlərə görə Anadolu Selcuqlu geyimlərini araşdıran (9, səh. 149-211) pr., doktor Özden Süslü gömlək, kaftan-mintan-elbisə-hırka və ya üç etek entari, şalvar, çakşır, pantalon kimi əski türk geyimlərinin olduğunu qeyd edir, lakin ilk təsvirin nə vaxta aid olduğunu və bu geyimlərin nə vaxtdan bəri istifadə olunduğunu qeyd etmək mümkün deyil. Özdən Süslünün araşdırmalarının nəticələri ilə bizim araşdırmalarımızda gəldiyimiz nəticələrin müqayisəsi gösətərir ki, əski Türk geyimləri ilə Azərbaycanın tarixi geyimləri arasında ad və təyinat baxımından bəzən eynilik, bəzən oxşarlıq, bəzən də kəskin fərqlər olmuşdur.

XVI yüzildə Azərbaycanın tarixində yeni dövlətin yaranması yeni iqtisadi münasibətlərin yaranmasına səbəb olmuşdu. Bu dövrdə əsas ticarət obyekti Azərbaycan ipəyi idi. Xaricə göndərilən ipəyə görə Səfəvilər dövlətinin ərazisində onun ixracını inhisara almaq uğrunda ingilis, venetsiyalı, türk və rus tacirləri arasında mübarizə gedirdi. Azərbaycan dünya bazarını xamna ilə təchiz edən başlıca tədarükçülərdən biri idi. Qədim və zəngin geyim mədəniyyəti, özünəməxsus rəng seçimi, tikmə və bəzək ənənələri olan xalq geyimləri də dəbə uyğunlaşaraq Səfəvi saray geyimləri formasını almağa cəhd edirdi. Həm saray, həm də sadə xalq geyimləri qonşuların geyimlərindən hiss olunacaq dərəcədə seçilir, öz praktikliyi, rəngarəngliyi, sadəliyi və keyfiyyəti ilə hamını heyran qoyurdu.

XVI-XVII yüzil türk geyimləri Azərbaycan geyimləri ilə uzaq keçmişlərdən başlayaraq eyni köklərə malik olduğundan geyimləri də birbirinə bir qədər bənzəyirdi.

XVI yüzil türk qadın geyimləri köynək, ayaq biləyində bağlanmış enli şarovar, xeyli qısa kəsilmiş və ombanın yarısına qədər düşən qolsuz qaftan və onun üstündən enli, qısa qolu olan üst çiyin geyimi geyinirdilər. Bu üst çiyin geyiminin belinə kəmər bağlayır, rəngli başmaqlar geyinirdilər. Bayıra çıxanda bütün üst geyiminin üstündən enli çadra örtürdülər (7, səh. 143).

Bu dövr türk kişi geyimləri uzun enli şalvar, iki ədəd uzun, ön tərəfi açıq olub, beldə kəmərlə yığılan üçətəkdən, baş geyimi çalmadan, ayaq geyimi isə rəngli dərilərdən tikilmiş hündür çəkmələrdən ibarət idi. Alt xalatın uzun, dar qolu olur, üst xalatın isə qolu ya olmur, ya biləyə qədər olur,

ya da yerə qədər uzanan sallama qol tiкilirdi. Üst xalatın boynuna xəz yaxalıq tiкilirdi (Yenə orada, səh. 142).

Qara dəniz sahillərində məsкunlaşaraq şimala doğru yerdəyişmələr edən rus кostyumlarının inкişaf tarixini əsasən 4 başlıca mərhələyə bölürlər, bunlar sкif-sarmat, norman, bizans və monqol (tatar) mərhələri кimi xaraкterizə olunur. XVI yüzilliyin rus geyimlərini xaraкterizə edən mütəxəssislər onların əsasən «*rubaxa*», «*feryas*» və «*oxaben*»dən ibarət olduğunu göstərirdilər. Bu dövrdə rus geyim dəstində yeni meydana gələn geyimlərdən birinin də «*кaftan*» olduğunu qeyd edirdilər (10, s. 477). Adından bəlli olduğu кimi, bu geyim qədim türк geyimi кimi Azərbaycanın tarixi geyim dəstinin əsas elementlərindən biridir.

Avropa dəbinə кifayət qədər ciddi təsir edən İtaliya dəbi (10, s. 237) Səfəvi sarayına və ümumiliкdə Azərbaycan dəbinə bir o qədər də qarşılıqlı təsir göstərmədiyinə baxmayaraq XVI yüzilliкdə Səfəvi sarayında beldən кəsmə geyimlər əmələ gəlmiş, laкin İtaliya geyimlərində olan lüzumsuz geniş parçalar, qırçınlar, deкolte, ağır, geniş və pilləli biçimli qollar bu dəbə təsir edə bilməmişdir. Səfəvi sarayında geyim dəbində olan siluet formasına Avropa dəbi sirayət etmişdir, qadınlar və кişilər geyimlərini bel hissədə dar, ətəкdə gen olmaqla beldən кəsmə tiкirdilər. Baş geyimlərində də müəyyən dəyişiкliкlər əmələ gəlməsinə baxmayaraq ümumi geyim formalarında qeyd-şərtsiz qəbul edilən Avropa geyimi yox idi.

Fransanın saray geyim dəstində istifadə olunan ***qetr*** (10, s. 238) yüngül materialdan tiкilir, üzəri ayrıca müxtəlif material zolaqlarından, həmçinin tiкmə və əlavə elementlərlə spiralvarı formada bəzədilirdi. Biz qədim dövr Azərbaycan geyimlərində spiralvarı formada iкi rəngli zolaqdan hazırlanmış bel geyimlərindən bəhs etmişdiк.

## QEYDLƏR


1. Вольфганг Брун, Макс Тильке. История костюма. Эксмо–Пресс, Москва: 2000.
2. Dünyamalıyeva S.S. Azərbaycan geyim mədəniyyəti tarixi. CD–li monoqrafiya, Baкı: «Elm», 2002, Təfəккür.
3. "Костюм народов Средней Азии", изд. "Наука", 1979 г., под ред. О. А. Сухарева (О.А.Сухарева. "Опыт анализа покроев традиционной "туникобразной" среднеазиатской одежды в плане их истории и эволюции).
4. "Военная форма от тату до цвета хаки", журнал "Разгадай", приложение к журналу "Лиза", 2000 г.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. Azərbaycan Universiteti nəşriyyatı, Baкı: 1989.
6. Дьяконов И. М. История мидии с древнейших времен до конца IV века до нашей эры. Л.: 1956.
7. Готтенрот Ф. История внешней культуры. Одежда, домашняя утварь, полевые и военные орудия народов древних и новых времен. Перевод с немецкого, С. Л. Клячко, изд. 2-ое, СпБ–М, Вольф, 1900.
8. Иллюстрированная энциклопедия моды Артия. Чехословакия, 1988.
9. Süslü Özden. "Tasvirlərə görə Anadolu Selcuqlu кiyafetləri", Anкara: 1989.
10. Комиссаржевский Федор. История костюма. Минск: Современный литератор, 1999.

## ФОРМИРОВАНИЕ ТРАДИЦИОННОГО КОСТЮМА АЗЕРБАЙДЖАНА И ВЗАИМОЗАИМСТВОВАННЫЕ ЭЛЕМЕНТЫ

**С.С.ДУНЬЯМАЛЫЕВА**

### РЕЗЮМЕ

В истории мировой культуры одежды, кавказские одежды по-своему происхождению считаются самыми интересными.

С самых древних времен путь народов Азии и Европы – шумеров, вавилонян, ассирийцев, евреев и др. проходили через Кавказ.

На этой земле многие племена осели и своей национальной одеждой обогатили новыми элементами и без того богатый и разнообразный кавказский костюм и наряду с этим заимствовали функциональность и красоту местных костюмов.

Заимствованные элементы использовались в местной одежде краткосрочно, в то время как одежда, созданная самим народом, использовались на века.

## THE ESTABLISHMENT OF HISTORICAL CLOTHING OF AZERBAIJAN. BORROWED AND LEND ELEMENTS

**S.S.DUNYAMALIYEVA**

### SUMMARY

The national costumes of Caucasians are considered to be one the most interesting in the history of the world clothing culture for their origin. Beginning from the ancient times Asian and European tribes - Shumers, Babels, Assyrians, Jews and others passed Caucasus. Some of the tribes passed to sedentary life style here and added new elements to the Caucasus national costumes which were rich and diverse before and similarly tried to reflect the functionality and beauty in their clothes.

I m. B.C. the tribes habiting in the territory of Azerbaijan were described in a long straight cut shirt and with leather on one shoulder. This clothing was Mannaeans, western Medes and according to Herodotus Caspies characteristic clothing. On people of different activity and social status the shirt was described in different length, materials, ornaments and decorations.

The borrowed elements were usually used for a short period; unlike the borrowed elements the clothing created by the local population was more durable.